FASNATURAL® 400

QƏLİBLƏRDƏ TÖKMƏ ÜSULU İLƏ BƏZƏK MƏMULATLARININ HAZIRLANMASI ÜÇÜN QURU QARIŞIQ

MƏHSUL HAQQINDA

Əhəngdaşı əsaslı, birkomponentli, şaxtaya, istiyə, suya və xarici təsirlərə qarşı davamlı yüksək möhkəmliyə malik, fasadda üzlük plitələrin yaradılması üçün istifadə olunan quru qarışıqdır.
TŞ AZ 3143489-006-2016 saylı texniki şərtin və ГОСТ 9479-84 saylı dövlət standartının tələblərinə uyğundur.

İSTİFADƏ SAHƏLƏRİ

Bu məhsuldan:
• qəliblərdə tökmə üsulu ilə bəzək məmulatlarının hazırlanmasında;
• memarlıq elementlərinin hazırlanmasında;
• yerdə bəzəkli daş kompozitlərinin düzəldilməsində istifadə olunur.

ÜSTÜNLÜKLƏRİ

• ağlay daşından hazırlanmış bəzək məmulatlarını əvəz edir;
• su hopmur;
• şaxtada çatlamır;
• məhsulun müqaviməti təbii daşa nisbətən daha yüksəkdir.

İSTİFADƏ QAYDALARI

Səthin hazırlanması. FASNATURAL 400 məhsulunu qəliblərə tökülməmişdən öncə qəliblər təmizlənməli və **MaOil 100** qəlib yağı və ya digər oxşar məhsul ilə yağlanmalıdır.

Qarışdırılması. 25 kq-lıq FASNATURAL 400 məhsulu içərisində 5,0-5,5 litr təmiz su olan qaba yavaş-yavaş boşaldılır və 3 dəqiqə saxlanılır, sonra mikser və ya əl aləti ilə homogen qarışıq əmələ gələnə kimi qarışdırılır.

Tətbiqi. Bəzək məmulatları və üzlük daş kompozitləri məhsulu hazır qəliblərə tökməklə və ya əvvəlcədən tökülmüş və qurudulmuş bloklardan xüsusi dəzgahlarla kəsməklə alına bilər. Tökmə üsulu ilə istənilən bəzəkli daş kompozitləri düzəltmək üçün hazırlanmış FASNATURAL 400 qarışığı hazır qəliblərə tökülür və məhsulun artıq hissəsi qəlibin üzərindən sıyrılıb götürülür. Maksimum 1 gündən sonra qəlib açılır və hazır məmulatlar qəlibdən çıxarılır. Kəsmə üsulu ilə bəzəkli ornamentləri hazırlamaq üçün hazır məhsul plastifikator qatılmış və ya adi suyun üzərinə əlavə edilir və 3-5 dəqiqə homogen qarışıq əmələ gələnə kimi qarışdırılır. Hazırlanmış qarışıq qəliblərə doldurulur və kiplə-şməsi üçün 2-5 dəqiqə ərzində vibrasiya olunur. Ölçüsündən asılı olaraq qarışığın tam bərkiməsi üçün onun minimum 12 saat müddətində qəliblərdə saxlanılması məsləhət görülür. Qarışıq tam bərkidikdən sonra tökülmüş məmulatlar lazım gələrsə tamamilə quruması və bərkiməsi üçün quruducu sobalara göndərilə bilər.

Tövsiyələr. FASNATURL 400 məhsulunun istifadə olunduğu mühitin temperaturu +5^{0}C-dən aşağı və +30^{0}C-dən yuxarıdırsa, lazımi temperatur təmin olunmalıdır. İsti (+30^{0}C-dən yuxarı), yağışlı və küləkli havalarda istifadə olunmamalıdır. İstifadə müddəti keçmiş qarışığa qətiyyən su və ya quru qarışıq əlavə edilməməlidir. İstifadədən sonra bütün alət və ləvazimatlar su ilə təmizlənməlidir.

TEXNİKİ GÖSTƏRİCİLƏR

Rəngi	bej (sarıya çalan açıq-qəhvəyi, təbii əhəngdaşı rəngində)
İstifadə temperaturu	+5^0 C – +30^0 C
Su / quru qarışıq	5,0-5,5 litr su / 25 kq quru qarışıq
İstifadə müddəti	80 dəqiqə
Sıxılmada möhkəmlik həddi: • *havada quru halda, az olmamalı* • *su hopdurulmuş halda, az olmamalı*	 10,0 MPa 7,0 Mpa
Şaxtaya davamlılıq markası	F 25-dən az olmamalı
Qablaşdırma	3 qatı kraft kağızı,1 qatı polietilindən ibarət olan 25 kq-lıq kisə

SƏRFİYYAT

Qəliblərin ölçülərindən asılı olaraq sərfiyyat dəyişkəndir.

SAXLAMA MÜDDƏTİ VƏ QAYDASI

Açılmamış kisədə, quru şəraitdə, taxta altlıqlar üzərində bir-birinin üstündə maksimum 10 ədəd kisə olmaqla 12 ay saxlanıla bilər.

XƏBƏRDARLIQLAR

• FASNATURAL 400 qarışığının qatqılarla zəngin olduğunu nəzərə alaraq dəriyə və gözə düşdük-də dərhal su ilə yuyun;
• istifadə qaydalarında qeyd edilməyən heç bir əlavə maddə qatmayın;
• yuxarıdakı göstəricilər +23^{0}C±2^{0}C temperatur və 50% + 5% rütubətli şəraitdə aparılan labo-ratoriya sınaqları nəticəsində əldə olunmuşdur. Şəraitdən asılı olaraq bu göstəricilər dəyişə bilər.

ZƏMANƏT VƏ TEXNİKİ DƏSTƏK

• texniki göstəricilərdə qeyd edilmiş məlumatlar elmi və təcrübi biliklərə əsaslanır;
• “Mətanət A” şirkəti məhsulun müvafiq texniki şərt və dövlət standartlarına uyğunluğuna zəmanət verir;
• şirkətin mütəxəssislərinin rəhbərliyi altında görülən işlər istisna olmaqla, digər istifadəçilər tərəfindən təlimatdan kənar istifadə zamanı yarana biləcək problemlərə görə “Mətanət A” şirkəti məsuliyyət daşımır;
• şirkət elmi-texniki inkişafla bağlı məhsulda dəyişiklik etmə hüququnu özündə saxlayır;
• texniki dəstək və ya daha geniş məlumat almaq üçün “Mətanət A” şirkətinə müraciət edin!!